up time
www.uptime-marketing.com
0553031991
**Bakı, Cəlil Məmmədquluzadə 82.**

**Tarix – 03.06.2024**

Şəxs olaraq Səbinə xanımla uzun illərdir ki, tanışıq. Bu illər ərzində Səbinə xanımla rəhbərlik etdiyim Uptime Marketinq Agentliyi ilə bir neçə layihədə birgə əməkdaşlıq etmişik. Əməkdaşlıq etdiyimiz layihələr marketinq tədqiqatları üzrə bir neçə istiqamətdə olub.

Səbinə xanımın beynəlxalq tədqiqat konsaltinq şirkətinin Azərbaycan bürosuna rəhbərlik etdiyi dövründə həmin şirkət ilə agentlik olaraq Brend sağlamlığı, Qiymət Monitorinqi, Xidmət Keyfiyyətinin ölçülməsi kimi müxtəlif tədqiqat layihələri çərçivəsində əməkdaşlıq etmişik.

Layihələrdə çalışdığımız dövrdən Səbinə xanımı dəqiq, punktual və prinsipial olaraq tanımışıq. Çünki, o müştərinin istək və təkliflərini nəzərə alsa da, daim tədqiqat qanunlarına sadiq qalır, beynəlxalq standarlardan irəli gələrək tədqiqat dizaynını təyin edir.

Bu da marketinq agentliyi olaraq bizim üçün xüsusən vacibdir. Belə ki, müştəri ilə işlədikdə, Səbinə xanıma tam arxayınlıqla müştərinin məsələsini həvalə etmək olar. Çünki, o həm marketoloq, həm tədqiqatçı, həm də konsultant kimi məsələyə yanaşaraq məsələni hərtərəfli nəzərdən keçirib, məqsəd və vəzifələrə nail olmaq üçün ən uyğun layihə metodologiyasını təklif edə bilir.

Digər tərəfdən isə Səbinə xanımı etibarlı tərəfdaş olaraq tövsiyə edə bilərəm. İllər keçsə də etibarlı tərəfdaş olaraq şəxsi və rəhbər nüfuzunu qoruyub saxlaya bilib.

Odur ki, onunla işləməyi əminliklə tövsiyə edə və başlanan bütün layihələrin uğurla yekunlaşacağına əmin edə bilərəm.

Emin Vəli
Təsisçi

Uptime Marketinq Agentliyi (UMA MMC)

AZƏRBAYCAN RESPUBLİKASI • UMA • MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ